TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri
_____________ E. M. Ağayev
"25" İyun 2015-ci il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**PANTENOL** aerozol
PANTHENOL

**Tərkibi**
*Təsiredici maddə:* 1q preparatın tərkibində 50 mq dekspantenol vardır (propellent nəzərə alınmadan) (100% maddəyə nəzərən).
*Köməkçi maddələr:* emulqasiyaedici setilstearil spirti (A tip), makroqolqliserol kokoat, metilparahidroksibenzoat (E128), propilenqlikol, kalium-dihidrofosfat, natrium-hidrofosfat dodekahidrat, təmizlənmiş su, tetraftoretan.

**Dərman forması**
Ağ rəngdə, cüzi spesifik iyi olan köpük.

**Farmakoterapevtik qrupu**
Yara və xoraların müalicəsi üçün preparatlar.
**ATC kodu:** D03A X03.

**Farmakoloji xüsusiyyətləri**
Dekspantenol pantoten turşusunun spirt analoqu olub, aralıq maddələr mübadiləsinə görə pantoten turşusunda olan bioloji aktivliyi vardır. Pantoten turşusu və onun duzları suda həll olan vitaminlərdir, hansılar ki, koenzim A şəklində çoxsaylı metabolik proseslərdə iştirak edir. Dekspantenolun yerli istifadəsi zədələnmiş dəri və/və ya selikli qişaların pantoten turşusuna yüksək tələbatını kompensə edə bilər. Təsiredici substansiya dəri ilə absorbsiya olunur. Təsiredici maddənin dəri və selikli qişalarda metabolizmi üzrə ətraflı tədqiqatlar keçirilməyib.

**İstifadəsinə göstərişlər**
Dərinin və selikli qişaların müxtəlif zədələnmələri zamanı istifadə edilir, o cümlədən sıyrıntı və yanıqlar, aseptik cərrahi əməliyyatlardan sonrakı yaralar, dərinin transplantasiyası, bullyoz və qabarlı dermatitlər.

**Əks göstərişlər**.
Preparatın komponentlərindən hər hansı birinə qarşı yüksək həssaslıq.

**Ehtiyat tədbirləri**
Konteyner təzyiq altındadır. Birbaşa günəş şüalarının təsirindən və 50 °C-dən yüksək temperatura qədər qızmasının qarşısını almaq lazımdır. Balon (konteyner) hətta tam istifadədən sonra açılmamalı və yandırmamalı, qazın yalnız tam buraxılmasından sonra atılmalıdır. Açıq odun və ya bərk qızdırılmış əşyaların yaxınlığında püskürtmək olmaz.

Preparatı ilk dəfə istifadə etdikdə konteyner yaxşı-yaxşı çalxalanmalı, köpük əmələ gələnə qədər birinci porsiyanı buraxmaq və yalnız sonra preparat zədələnmiş sahənin üzərinə püskürtmək lazımdır.
Köpüyün gözə düşməsindən çəkinmək lazımdır. Köpük təsadüfən gözə düşərsə, onu su ilə yumaq lazımdır.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
Pantotenat plasentar baryeri aktiv nəqliyyat prosesi yolu ilə keçir və ana südü ilə sorulmasına mütənasib olaraq xaric olur.
Nəzərə alaraq ki, deksapantenolun yerli istifadəsindən sonra mənimsənilməsi məlum deyil, Pantenol aerozolunun hamiləlik və ya laktasiya dövründə dərinin geniş sahələri üzərinə istifadəyə ehtiyac yarandıqda preparatdan istifadənin ana üçün faydasını və döl/uşaq üçün potensial riskini ciddi qiymətləndirmək lazımdır. Hamiləlik zamanı preparat göstərişlər üzrə istifadə edilə bilər. Laktasiya dövründə döş giləleri çatlarının müalicəsi üçün istifadə etdikdə preparat uşağın əmizdirilməsindən əvvəl yuyulmalıdır.

**Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**
Xüsusi xəbərdarlıq yoxdur.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Pantenol aerozolun digər dərman vasitələri ilə qarşılıqlı təsiri məlum deyil.

***Uşaqlar.***
Uşaqlarda preparat həkimin göstərişi üzrə və böyüklərin nəzarəti altında istifadə olunmalıdır.

**İstifadə qaydası və dozası**
Pantenol aerozol zədələnmiş sahənin üzərinə gündə bir və ya bir neçə dəfə bərabər püskürdülür.
Preparatı püskürdərkən, konteyner klapanı yuxarıda olmaqla şaquli vəziyyətdə saxlanmalıdır.
Keyfiyyətli köpüyü əldə etmək üçün hər istifadədən əvvəl konteyner yaxşı-yaxşı çalxalanmalıdır, xüsusilə əgər o, uzun müddət ərzində istifadə olunmamışdırsa. Əgər preparat ilk dəfə istifadə olunursa, köpük əmələ gələnədək əvvəlcə yalnız propellent püskürdülə bilər.
Taxma zədələnmiş sahəyə yaxınlaşdırılır və üzərinə yüngül basaraq preparat zədələnmiş sahənin üzərinə 1-2 saniyə ərzində 10-20 sm məsafədən püskürdülür.
Müalicənin davametmə müddəti xəstəliyin xarakterindən və gedişindən asılı olaraq həkimin məsləhətindən sonra müəyyən edilir.
Əgər Pantenol aerozol üzdə olan sahənin üzərinə istifadə edilərsə, onu bilavasitə üzün üzərinə püskürtmək olmaz. Belə halda preparat əlin üzərinə püskürdülür və sonra üzün müvafiq hissəsinə yaxılır. Preparatı gözə, bilavasitə ağız boşluğuna və ya buruna püskürtmək olmaz.

**Doza həddinin aşılması**
Pantenol aerozolu təlimata müvafiq olaraq istifadə etdikdə doza həddinin aşılması çox az ehtimal edilir.
Preparatın böyük miqdarda istifadəsi zamanı toksik effektlər gözlənilmir. Mədə-bağırsaq pozğunluqları əmələ gəldikdə simptomatik müalicə təyin edilir.

**Əlavə təsirləri**
Allergik reaksiyaların əmələ gəlməsi mümkündür, o cümlədən kontakt dermatit, allergik dermatit, qaşınma, ekzema, səpgilər, övrə, dəridə qıcıqlanma və suluqlar.

**Buraxılış forması**
58 q və ya 116 q aerozol, alüminium konteynerdə. 1 konteyner içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**
25° C-dən yüksək olmayan temperaturda və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti.**
2 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı**
MMC "Mikrofarm"
Ukrayna, 61013, Xarkov şəh., Şevçenko küç., 20.